# RYSTƏM ilə ISFƏNDIJARЬN VURUŞMASЬ
### və
# ISFƏNDIJARЬN ƏLMƏSI

*Firdevsi*

*Cevirəni: Myşfiq
M. Sejid zadə*



Firdevsinin şəklini rəssam QNIT hazırlamışdır

[illegible]dan jeri, doqdu parlaq gynəş.
Qaranlьqlarь boqdu parlaq gynəş,
Gejib hərbi paltar, bojyk pəhləvan,
Niaz ilə jad ejlədi tanrьdan.
Minib daq kibi nərrə pil ystynə.
O qəşti kibi cьqdь Nil ystynə.
Cahınca bojyk orduja namdar,
Baqırdı hanь, nerdə Isfəndijar.
Onun qəlbi olmuşdu pək şadiman,
Ujardan cəkib nə'rələr pəhləvan:
—«Ej arslan yrəkli, nicin jatmьsan?
Minib Rəxşə, Rystəm hazьrdьr, ojan!
Qalx ujqudan, hajdь qalq, hərbə qoş!
Mənimlə savaş, hajdь mejdanda coş!»
Eşitdi bu avazь Isfəndijar;
Onun gəzlərində çahan oldu tar.

Dedi:—«Ej Pəşutən bu dynjada şir,
Olan jerdə əfsuncu olmaz dilir,
Gyman etməjirdim ki, Rystəm geri,
Donyb bir də gərsyn bizim jerləri.
Vyçudunda pejkanlarьm gəzdi coq,
Kənar olmadь bəlkə Rəxşindən oq.
Dejirlər hər əfsuncu, hər çadugər,
Əgər mejli olsa, gynəş fəth edər.
Açьqlansa hətta çanьndan kecər,
Gəzyndən bojyklyk təmamən dyşər».
Pəşutən təkyb gəz jaşь biməçal,
—«Qoj olsun dedi:—dyşmənin pajimal.
Nicin sən bu gyn bojlə pəzmyrdəsən?
Məgər ujqusuzmu savuşmuş gecən,
Nədəndir çahanda iki pəhləvan,
Cəkir dərdy-qəm, gylməjir bir zaman?

